DOI: 10.30546/2616-4418.12.2020.97

REKLAM XİDMƏTLƏRİ BAZARI VƏ AZƏRBAYCANDA ONUN TƏŞKİLİ MEXANİZMİ

Fərid DADAŞOV
Azərbaycan Kooperasiya Universiteti, Bakı, Azərbaycan

1. Giriş

Azərbaycanda reklam bazarı müstəqillik dövründə yeni iqtisadi sistemin qurulması, KİV bazarının formalaşması ilə inkişaf etməyə başlamışdır. Amma onu da qeyd etməliyik ki, XIX əsrin sonları – XX əsrin əvvəllərində Bakıda neft sənayesinin sürətli inkişafı nəticəsində yaradılan zəngin, dövrün tələblərinə cavab verən reklam ənənələri mövcud olmuşdur.

Azərbaycanda XX əsrin ikinci yarısından başlayaraq, reklam fəaliyyətinin formalaşması meylləri güclənir, bu sahənin təşkilatı əsaslarının yaradılması üçün addımlar atılırdı ki, bu da respublikanın reklam agentliklərinin fəaliyyətlərinin canlanması ilə müşayiət olunurdu. Amma bu sahədə reklama dair ixtisaslı yerli mütəxəssislərin, eləcə də ölkədə reklam istehlakçılarının və KİV-lərin lazımı səviyyədə olmaması özünü göstərirdi.

Məhz buna görə də vəziyyəti yaxşılaşdırmaq üçün bu illərdə yaradılan bütün birgə reklam müəssisələri əsasən, marketinq, problemləri ilə yanaşı, reklam auditoriyasının məqsədli qruplarının tədqiqi, kommunikasiyaların sahmana salınması, yerli mütəxəssislərdən ibarət olan əməkdaşların hazırlanması ilə məşğul olurdular. (3)

Məlumdur ki, reklam bazarı əmtəə mübadiləsi sferasıdır ki, burada əmtəə kimi reklam materialları və xidmətləri çıxış edir. O, tələb və təklif iqtisadi qanuna uyğun olaraq inkişaf edir.

Reklam fəaliyyəti üzrə ədəbiyyatlarda "reklam xidmətləri bazarı" anlayışına tez-tez rast gəlinsədə, onun tərifi barədə hələdə ümumi fikir formalaşmamışdır.

Bu sahədə tanınmış mütəxəssislərdən hesab edilən T.K. Seryogina və L.M.Titkova reklam xidmətləri bazarına aşağıdakı tərifi vermişdilər:

"Reklam xidmətləri bazarı dedikdə, ölkənin sənayesində, ticarətində, kütləvi informasiya vasitələrində, xarici iqtisadi kompleksində mövcud olan reklam agentliklərinin və reklam xidmətlərinin məcmusu başa düşülür (Серегина ,52).

Reklam xidmətləri bazarı

Başqa bir mülahizəyə görə, reklam xidmətləri bazarı dedikdə, reklam xidmətlərinin alqı-satqısı kimi ifadə olunan münasibətlərin xüsusi mexanizmi başa düşülür. Deməli, reklam bazarı əmtəə sferası ilə münasibdir ki, burada əmtəə qismində reklam materialları və reklam xidmətləri də çıxış edir.

Reklam xidmətləri bazarının mühüm cəhəti ondan ibarətdir ki, bu bazar özünü lazımi qədər təmin edə bilmir, belə ki, reklam xidmətlərinin əldə olunması son nəticə deyil, yalnız reklam vericinin aralıq məqsədidir. Onlar reklam xidmətlərini öz istifadəsi üçün əldə etmirlər, əksinə bu xidmətlər reklam məhsuluna çevrilir ki, bu da sonradan reklam istehlakçısına – bütün bu mürəkkəb bazar vəziyyətini başlıca iştirak edən şəxsinə satılır.

Onu da qeyd etməliyik ki, reklam xidmətləri bazarı iqtisadi sistemdə digər bazarlarla sıx vəhdətdədir. Digər bazarlarda olduğu kimi reklam xidmətləri bazarında da tələb və təklif, mənfəət və xərclər, qiymət və qiymətin əmələ gəlməsi, bazarın konyukturası, qərabət və s. kimi iqtisadi hadisələr və kateqoriyalar iştirak edir.

Bütün bu reklam xidməti barədə fikirləri nəzərə alsaq, aşağıdakı ümumiləşdirmələrlə xarakterizə etmək olar:

Reklam xidməti - xidmətin sifarişçisi ilə onun istehsalçısı arasında qarşılıqlı fəaliyyətin təşkilini daxil edən reklamverici tərəfindən ödənilən proses, reklam obyekti haqqında informasiyanın, reklam informasiyasına gətirilməsi prosesi, reklam informasiyasının yayılmasının təşkili və həyata keçirilməsi prosesidir.

Reklam xidməti – bazarda əmtəə qismində çıxış edən reklam bazarının subyektlərinin qarşılıqlı münasibətlərinin əsas obyektidir. "Əmtəə" anlayışı təkcə fiziki obyektləri yox, həm də xidmətləri daxil edir. Bazar sistemində əmtəə dedikdə, tələbatın ödənilməsinə qadir və mübadilə (alqı-satqı) obyekti olan hər şey nəzərdə tutulur. Reklam xidmətləri əmtəənin bütün əlamətlərinə malikdir və fəaliyyət prosesində yaradılır, eyni zamanda maddi, əmək, maliyyət məsrəfləri ilə müşayiət olunur, istehlak dəyərinə malikdir. Reklam xidmətləri bu xidmətləri istehlak edən, xüsusi şəxslərə və ya təşkilatlara göstərilir.

Reklam xidməti – maddi və qeyri-maddi istehsalın sintezidir. Xidmətlərin qeyri-maddi hissəsinə reklam prosesinin bütün servis və yaradıcı (əqli) hissəsini aid etmək olar. Maddi hissəsini isə bütün istehsal sferasını (reklam istehsalı və ya "prodakşn" kimi qəbul olunan hissəsini) aid etmək olar.

Müasir reklam bazarı reklam vericilərin müxtlif tələblərinin ödənilməsi üçün həm ixtisaslaşmış, həm də kompleks reklam xidmətləri dəstini və geniş spektrdə təkliflərin mövcudluğunu tələb edir. Bir qayda olaraq reklam bazarında reklam xidmətləri üç növə bölünür:

- *Reklam kommunikasiyasının işlənib hazırlanması, planlaşdırılması və təşkili üzrə xidmətlər,*
- *Reklam məhsulunun istehsalı üzrə xidmətlər,*
- *Reklamın yayılması vasitələrində onun yerləşməsi üzrə xidmətlər.*

Bu əsas xidmətlər əlavə xidmətlərin geniş dəstini tələb edir: bazarın tədqiqi, istehlakçıların, rəqiblərin və kütləvi informasiya vasitələrinin davranışı, reklam məhsulunu tirajlanması və çatdırılması, reklam sahəsində konsaltinq, audit və s. bu xidmətlərin bir hissəsi çox vaxt əsas xidmətlərin ayrılmaz tərkib hissəsini təşkil edir.

Sadalanan göstəricilər, reklam xidməti bazarı barəsində məlumatların dərc edilməsi reklam bazarının da səviyyəsini müəyyən edir. Onu qeyd edə bilərik ki, respublikada artıq reklam bazarı bir fəaliyyət növü kimi formalaşmışdır. Onun inkişaf səviyyəsi, malik olduğu potensial imkanlarından aşağı olsa da, o iqtisadi fəaliyyətin bir növü kimi özünü təsdiq etmişdir.

2019-ci ildə Azərbaycanda reklamdan gələn gəlir 73,6 milyon manat təşkil etmişdir ki, bu da 2015-2018-ci illərin göstəricilərindən yuxarı olmuşdur.

Cədvəl 1.

Reklam xidmətlərindən əldə olunan gəlirlərin dinamikası (2015-ci ilə nisbəti faizlə).

	Məhsulun satışından və xidmətlərin göstərilməsindən əldə olunan gəlir, min manat	**2015-ci ilə nisbətən%-lə**
2016	43483	69.1
2017	44400.3	70.6
2018	51183.5	81.4

Hazırda Azərbaycanın reklam bazarında orta hesabla 150-200 milyon dollarlıq reklam büdcəsi yarana bilər. Lakin bu gün bu rəqəm 50-60 milyon dollardan çox deyildir. Ölkənin reklam bazarında bir tərəfdən qiymətlər ucuzdur, digər tərəfdən də alıcı azdır, reklam yayımını daha çox istehlakçı cəlb edən auditoriyası kifayət deyildir. (Qarayev, Yusifov və Novruzova, 134).

Ölkədə reklam bazarını inkişaf etdirmək üçün çoxsaylı amilləri hərəkətə gətirməklə yanaşı, reklam fəaliyyətinin elmi-təşkilatı əsaslarının möhkəmləndirilməsinə ehtiyac vardır. Bu baxımdan reklamın yayılması vasitələrində onun yerləşməsi sahəsində xidmətlərin səmərəliliyi barədə bəzi fikirlərimizi açıqlayaq. Bu xidmətlər iki əsas qrup üzrə bir-birindən fərqləndirilir:

- **Media bayerlərin** - kütləvi informasiya vasitələrində reklam məkanını satın alan təşkilatların xidmətləri.

- **Mediasellerlərin** – kütləvi informasiya vasitələrində reklam məkanını satan təşkilatların xidmətləri. İxtisaslaşdırılmış xidmətlərə sifarişçi reklam vericiyə differensial olaraq, yəni müxtəlif kombinasiyalarda və ya bir-birindən ayrıca təqdim edilən bütün reklam xidmətləri adidir.

Bura reklam məhsulunun yerləşməsi, işlənib hazırlanması və icra xidmətləri daxildir. Reklamın yerləşməsi sahəsində, xidmət müxtəlif kateqoriyalı reklamvericilər arasında ən geniş tələbə malikdir, buna görə də reklam bazarında bu ixtisaslaşmış xidmət ən böyük təklifə sahibdir.

Təcrübədən məlumdur ki, reklam vericilər öz sifarişçilərinə bütün mümkün daşıyıcılarda (media): çap (vərəqələr, plakatlar, bukletlər, prospektlər, kataloqlar və s.); tranzit (nəqliyyat vasitələrinin bütün növləri); stasionar (lövhələr, panolar və s.); kütləvi informasiyalarına aid olan (qəzetlər, jurnallar, radio və televiziya) və bir çox digər daşıyıcılarda yerləşmə üzrə xidmətləri təklif edirlər.

Reklam istehsalçıları həmçinin, istehlakçılara ixtisaslaşmış xidmətlər göstərirlər ki, bunlara da reklam mətnlərinin, orijinal maketlərin, ssenarilərin, strategiyaların və ideyaların işlənib hazırlanması üzrə xidmətlər aid edilir. Elə reklam şirkətləri də vardır ki, onlar reklam xidmətlərinin bütün əsas növlərini təqdim edir, yəni reklam kampaniyasının işlənilib hazırlanması və aparılmasını həyata keçirir. Bu kimi xidmətlər kompleks reklam xidməti hesab olunur.

Reklam bazarının subyektlərinin qarşılıqlı fəaliyyəti prosesində reklam xidmətlərinə və reklam məkanına aid olan tələb, təklif və qiymət formalaşır.

Makroiqtisadi səviyyədə tələb, cəmiyyət miqyasında reklam xidmətlərini əhatə edir. Araşdırmalar göstərir ki, istehlak mallarının ticarəti sferasında reklam xidmətlərinə aid olan tələbin yüksək səviyyəsi mövcuddur – reklam sifarişlərinin əksər hissəsi istehsalçılardan və ticarət şirkətlərindən daxil olur və bunların daim ticarət reklamına böyük həcmdə tələbatı mövcuddur.

Buna görə də makroiqtisadi nöqteyi-nəzərindən tələb, müəyyən qrup istehlakçılar səviyyəsində konkret bazara münasibətdə nəzərdən keçirilir. Bu baxımdan bazarların bir neçə növü mövcuddur. Bunlara hər şeydən əvvəl, kütləvi istifadə üçün nəzərdə tutulan əmtəə və xidmətlərin reklamına olan tələbi birləşdirən istehlak malları bazarını aid etmək olar. Xidmət və reklam bütövlükdə iqtisadi sistemin bir hissəsidir. O, cəmiyyətin reklam xidmətlərinə olan ehtiyaclarını təmin edir.

Reklam xidmətləri bazarı - iqtisadiyyatın müstəqil hissəsidir və özündə bu bazarın əsas oyunçuları arasında yaranan və inkişaf edən hüquqi, sosial, iqtisadi və digər böyük münasibətlər sistemini daxil edir. Bura reklamın istehsalçıları, reklamın yayıcıları, reklam vericilər, eləcə də onun istehlakçıları aiddir.

Onlar arasında bütün reklam prosesinin və bütövlükdə bazarın öz işinin əsasını kifayət qədər sıx qarşılıqlı iqtisadi münasibətlər təşkil edir. (4). Bu amillər A.P.Kuzyakinin və M.A.Semiçevin fikrincə, reklam xidmətləri bazarı, reklam agentlikləri və onların digər istehsalçıları tərəfindən təqdim edilən reklam xidmətlərinin istehlakçılarının məcmusudur. (Кузяйкин, 274).

Reklam xidmətləri bazarının funksiyaları fikrimizcə, reklamın özünün funksiyalarına nisbətən daha genişdir və aşağıdakılardan ibarətdir:

- *əmtəə və xidmətlərin dövriyyəsinin stimullaşdırılması, onların satışına çəkilən xərclərin azaldılması;*
- *kütləvi informasiya vasitələrinin maliyyələşdirilməsi;*
- *əmtəələrin keyfiyyəti və digər xarakteristikaları, tətbiqi üsulları, texnologiyaların inkişafı və yeni malların işlənib hazırlanması haqqında istehlakçıların biliklərinin artırılması;*
- *məşğulluğun və əmək bazarının inkişafının stimullaşdırılmasının təmin edilməsi;*
- *dövlət büdcəsinin gəlirlərinin müntəzəm olaraq formalaşdırılması;*
- *iqtisadi əlaqələrin inkişafının stimullaşdırılması;*
- *sağlam həyat tərzini, ətraf mühitin mühafizəsini və digər ictimai dəyərləri təbliğ edən sosial reklam vasitəsilə ictimai rəyin və davranışın formalaşması və s.*

Vacib inkişaf amillərindən biri reklam xidmətləri bazarının strukturu hesab edilir. Onun strukturu barədə aşağıdakıları qeyd etmək olar:

- strategiyanı işləyib hazırlayan reklam agentlikləri (söhbət ideya səviyyəsində reklamın yaradılmasından gedir.)
- media agentlikləri-KİV (reklam materiallarının yerləşməsi planını işləyib hazırlayır və müştərinin adından reklam məkanını alır);
- marketinq kommunikasiyaları tipləri üzrə ixtisaslaşmış agentliklər;
- media sellerlər (satıcılar) KİV adından reklam məkanını satırlar.

Reklam xidmətləri bazarının ətraflı öyrənilməsi onun dinamikası, inkişaf meyllərini araşdırmağa və müəyyən nəticələrin əldə edilməsinə imkan verir. Başqa sözlə, hansı seqmentlər yuxarı yerlərdədir, hansılarından imtina etmək lazımdır.

Adətən şirkətlər iki yanaşmadan istifadə edirlər: öz qüvvələri ilə reklam bazarını təhlil edir və marketinq tədqiqatlarını aparır, yaxud konsaltinq agentliklərinin mütəxəssislərinin köməyi ilə reklam xidmətləri bazarının müasir informasiya metodları və vasitələrini tətbiq etməklə öz fəaliyyət göstəricilərinin yaxşılaşmasına nail olurlar. Apardığımız müqayisəli araşdırmalar göstərir ki, son

illər reklam xidmətlərini təqdim edən bazar daha çox müştəriləri cəlb edir.

Cədvəl 2.

Reklam xidmətlərinin yerinə yetirilməsinə dair bağlanmış müqavilələrin sayı (faizlə).

	2014	**2015**	**2016**	**2017**	**2018**	**2019**
Bağlanmış müqavilələr-cəmi	100	100	100	100	100	100
o cümlədən:						
- ərzaq mallarının reklamı üzrə	15.8	5.1	4.8	7.2	14.1	13.9
qeyri-ərzaq mallarının reklamı üzrə	24.1	14.0	15.0	16.4	20.2	18.7
sosial reklam üzrə	2.2	0.5	0.5	0.4	3.8	2.5
xidmətin reklamı üzrə - cəmi	57.6	80.2	79.5	75.8	61.7	64.7

Bu işin canlanmasında reklam xidmətlərinin iki tipi də iştirak edir:

- **Fiziki.** Bannerlərin, reklam lövhələrinin, vərəqələrinin və digər atributların yaradılması.

- **Informasiya.** Məzmunun əhatəli, keyfiyyətli olması sayəsində müəyyən əmtəə və xidmətin mövcudluğu haqqında geniş kütlə, ətraflı məlumata malik olmaq.

Reklam fəaliyyətinin uğurunu təmin edən əsas amil reklam xidmətlərinin bütün növlərindən səmərəli istifadə etməkdir:

- *kontekst reklamın təşkili;*
- *saytların və internet mağazaların irəliləyişi;*
- *keyfiyyətli kontektin məzmununun yaradılması;*
- *yeni abunəçilərin cəlb edilməsi;*

Təcrübə göstərir ki, bu kimi əhatəli reklam xidmətlərindən istifadə edilməsi əməli səmərə ilə nəticələnir.

Reklam xidmətlərinin idarəçiliyi

Əlbəttə hər bir sahibkar və ya istehsalçı potensial alıcılarla ilkin iş olmadan öz məhsulunu buraxa bilər. Amma bu cür yanaşma heç də həmişə istənilən nəticəni verməyəcəkdir. Təcrübə onu da sübut etmişdir ki, vaxtında reklam xidmətlərinə müraciət etmək çox vacibdir. İlkin məsrəflərə baxmayaraq, onlar tezliklə öz xərclərini ödəyirlər. Belə reklamdan əldə olunan səmərə daha nəzərə çarpandır, əmtəə və ya xidmət haqqında informasiyanın yayılması sürəti isə ölçüyə gəlməz dərəcədə yüksəkdir. Reklam xidmətlərinin idarə edilməsinin planlaşdırılması və təşkil edilməsi çox vacibdir.

Ona görə də reklam xidmətlərinin idarə edilməsini reklam agentliyinin hər bir müştərisi ilə keçirmək məqsədə uyğun hesab edilir ki, bu cür yanaşma da reklam fəaliyyətində yaxşı nəticəyə nail olmaqla nəticələnir. Reklam fəaliyyəti göstəricilərin yaxşılaşdırılmasını təmin edən amillərdən biri reklam kampaniyaları hesab edilir.

Bir qayda olaraq reklam kampaniyası – müəyyən aralıq zaman üçün nəzərdə tutulan əmtəə, xidmət və ya markanın irəlləşməsinə istiqamətlənən tədbirlər sistemidir. Bu kimi tədbirləri həyata keçirən şirkətlərin məqsədi satışı və mənfəətini artırmaq, bütövlükdə şirkətin imicinin yaxşılaşmasına nail olmaqdır. Reklam kampaniyası həmçini alıcılarda yeni əmtəənin bazara çıxarılması və potensial müştərilərin şirkət barədə müsbət təəsüratını formalaşdırır. Bu kimi kampaniyalar həmçinin şirkətin qarşıya qoyduğu məqsədlərə nail olamaq, fəaliyyət dairəsini genişləndirmək, təsir intensivliyi imkanlarını artırır.

Bu gün reklam bazarında ərzaq və xalq istehlak mallarının satışı ilə bağlı reklamlar mühüm yer tutur və bunun üçün reklam vericilər müxtəlif vasitələrdən istifadə edirlər:

- Ticarətdaxili (qiymət siyahısı, məmulatların nümayiş etdirilməsi, şifahi reklam, göstəricilər);
- Xarici (reklam lövhələr; vitrinlər);
- KİV-də reklam vasitələri (mətbuatda, radioda, televiziyada elanlar).
- Alıcıya, istehlakçıya təsir metodlarına görə reklam aşağıdakı formalara bölünür:
- Fərdi (kataloqların, bukletlərin, broşüraların müxtəlif növləri, qəzet və jurnallarda qoşma vərəq);
- Kütləvi (vərələr, elanlar, çarxlar).

Bütün bunlar reklam istehlakçılarının miqyasını da şərtləndirir. Reklamın son istehlakçıları qismində reklam məlumatının çatdırıldığı fiziki və hüquqi şəxslər çıxış edir. Reklam xidmətlərinin tədavülü prosesində çoxsaylı müxtəlif subyektlər çıxış edir: onlar tərəfindən yerinə yetirilən işlər və xidmətlər məkan və zaman çərçivəsində qırılmış, dağılmış və iqtisadi subyektlərin hər biri öz iqtisadi maraqlarını güdür.

Reklamın təsir etdiyi sferada dəyişikliklər reklam xidmətləri bazarında cavab reaksiyası doğurur. Əgər istehlakçı reklamı qəbul etməyə hazır deyilsə, reklama və ya KV-ə etibar etmir, bu isə reklam xidmətləri bazarına öz təsirini göstərir.

Nəticə

"Reklam xidməti" işi mahiyyətinin açılmasına cəhd edilir və göstərilir ki, reklam xidmətləri əmtəənin bütün əlamətlərini özündə əks etdirir.

İqtisadiyyatın özünə məxsus fəaliyyət sahəsi hesab edilən reklam xidmətləri bazarının əsas göstəricilərini, strukturunun təhlilindən aydın olmuşdur ki, xidmətin reklamı, ərzaq, qeyri - ərzaq mallarının reklamına nisbətən daha sürətlə artır. Belə bir dinamikaya münasibət bildirilir, qlobal risklərin artdığı bir şəraitdə sosial reklama diqqətin artırılmasının vacibliyi vurğulanır.

Ədəbiyyat:

Кузяйкин А.П., Семичев М.А. Реклама и PR в мировой экономике: Учебное пособие – М.: Велби, 2002, с.274.

Серегина Т.К., Титкова П.М. Реклама в бизнесе. М.: Маркетинг, 1996. С.52.

F.M.Qarayev, E.M.Yusifov, A.Q.Novruzova. Reklam işinin təşkil. Dərslik. Biznes Universiteti Nəşriyyatı. Bakı., 2017. 356 səh.

İdriszadə A.S. Biznesdə reklam fəaliyyətinin zəruriliyi. Magistr dissertasiyası. Bakı. 2016.

Cyberleninka.ru

reklama.expo.ru

media.az

SUMMARY

The advertising services market and its organization mechanism in Azerbaijan

Farid DADASHOV
Azerbaijan University of Cooperation,
Baku, Azerbaijan

The article deals with the advertising services market and the mechanism of its organization as an important part of the advertising activities. The article primarily analyzes the role and importance of the advertising market in Azerbaijan. The main attention is paid to the disclosure of the essence of the market of advertising services, as well as the thoughts of various scientists on the content of the advertising services market. On the other hand, an important point of the article is the classification of the functions of the advertising market. The article specifically describes the types of the advertising services market. The article also elaborates on the elements that are part of advertising services. In addition, the article defines the advertising campaign. At the same time, the article delineates the goals and characteristics of the advertising company. The attention is focused on video advertising channels. In addition, the elements of the concept of advertising trade services are analyzed.

Keywords: advertising market, advertising services, the advertising services market, the advertising industry, advertising services market functions, the advertising market structure, the advertising services types, the advertising services management, the advertising channels, the advertising campaign.

РЕЗЮМЕ

Рынок рекламных услуг и механизм его организации в Азербайджане

Фарид ДАДАШОВ
Азербайджанский Государственный Университет,
Баку, Азербайджан

Статья посвящена рынку рекламных услуг и механизму его организации в Азербайджане – как важной составной части рекламной деятельности. В статье в первую очередь первоначально анализируются роль и значение рекламного рынка в Азербайджане. Основное внимание уделяется к раскрытию сущности рынка рекламных услуг, а также раскрываются мысли различных ученых о содержании рынка рекламных услуг. Важным моментам статьи является классификация функций рынка рекламных услуг. В ней конкретно излагаются типы, элементы рынка рекламных услуг, в том числе рекламных услуг торговли. Особое внимание уделяется анализу показателей рекламной деятельности и делаются соответствующие выводы. Подчеркивается важность видео-рекламных каналов.

Ключевые слова: рекламный рынок, рекламные услуги, рынок рекламных услуг, рекламная индустрия, функции рынка рекламных услуг, структура рекламного рынка, типы рекламных услуг, управление рекламными услугами, рекламные каналы, рекламная кампания.